# “Ürəyimiz elə yanır ki, soyuğu hiss etmirik”

**Türkiyədəki matəmə görə Azərbaycan da ağrı-acı, kədər içindədir. Türkiyənin ölkəmizdəki səfirliyi qarşısına gələn insan selinin lal sükutu qan dondurur. Səfirliyin önünə qoyulan saysız-hesabsız əklillərdən “matəm gülü” qərənfillər boylanır... onların köksü kimi xalqımın qəlbi də qan ağlayır. Türk qardaşlarımızın ah-naləsinə qarışan göz yaşlarımızdan buludlar da ağırlaşıb. Başımızın üstünü alaraq ətrafda hər şeyi boz rəngə bürüyüb. Təkcə müsibətimizin nə qədər ağır olduğunu xatırlatmaq üçün buraya gətirilən qərənfillərdən başqa...**





Donmuş barmaqları ilə onları sığallayaraq nizamla düzən **Xanım Babayeva** Azərbaycan bayrağına bürünüb. Onunla danışmaq istəyirik, kövrəlir. Pıçıltılı səslə “Ürəyimiz elə yanır ki, soyuğu, əllərimizin, ayaqlarımızın donmağını hiss etmirik. Hələ də insanlar dağıntıların altındadır. Onların arasında neçə-neçə körpə, uşaq, qocalar var. Buradan evə getmək istəsək də ayaqlarımız getmir. İlahi, Türkiyəmizi qoru”, - deyir.

**“Cığır” İctimai Birliyinin könüllüsü** olan bu gənc Azərbaycan gənclərinin daim türk qardaş-bacılarının yanında olduğunu bildirir: “Ürəyimiz onlardadır. Xəbər bizi, sadəcə, kədərləndirmədi, sarsıtdı. İmkan olsa elə bu dəqiqə zəlzələnin baş verdiyi əraziyə gedərik. Dualarımız qardaş xalqladır. Burada dünən axşama qədər qaldıq. Bu gün də burada olacağıq. Hamı deyir soyuqdur. Bəs belə bir soyuqda, dağıntılar arasında qalan insanlar necə olacaq? Bu sual bizim hər birimizin ürəyini didib-parçalayır”.

**Səfirliyin önünə əklil qoyan Taleh Mansurovun isə “Gənclərin Maarifləndirilməsinə Dəstək” İctimai Birliyinin** sədri olduğunu öyrənirik. T.Mansurov “Ürəyimiz qardaşlarımızladır, Allah onları qorusun”, – deyir.

Bildirir ki, Türkiyə Cümhuriyyətinin 10 böyük şəhərində baş verən zəlzələ xalqımızı dərindən necə sarsıdıbsa, hər yerdə matəm səsləri eşidirik. Bu acı və təəssüf doğuran faciə birliyin, qardaşlığın daha bir sınağıdır. Bu təkcə qanı qanımızdan, canı canımızdan olan, Türkiyə xalqının faciəsi deyil. Bu, Azərbaycan xalqının da müsibətidir: “Yüz illər xalqlarımız taleyin sınaqlarından keçib, ağrıları-acıları olub, amma yenidən ayaqda durub, daha əzəmətli olublar. Yüzlərcə insan Türkiyənin ölkəmizdəki səfirliyi önünə əklillər qoyur, yardım etmək istəyən insan selinin ardı-arası kəsilmir. Əlimizdən nə gəlirsə, ən yaxşısını etməyə çalışırıq”.

**Tələbə gənc, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində magistr təhsili alan Yusif Cəfərbəyli** də Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini yad etməyə gəlib. Tarixən Türkiyə və Azərbaycan xalqlarının bir-birlərinə dəstək olduqlarını bildirən Y.Cəfərli qeyd edir ki, ən böyük arzusu dağıntılar altında qalan insanların tez bir zamanda xilas edilməsidir.





“2021-ci ildə Azərbaycan və Türkiyə gənclərinin iştirakı ilə Türkiyədə keçirilən “Beynəlxalq zəfər düşərgəsi”ndə mən də iştirak edirdim. Zəlzələ baş verən şəhərlərdə də olmuşduq. Bu gözəl şəhərlərə dəymiş ziyanın ölçüsü çox böyükdür. Amma onlardan da qiymətli insan həyatıdır. Ümid edirik ki, fəlakətin fəsadları tez bir zamanda aradan qaldırılacaq. Qardaş xalqın bu bəladan mümkün qədər az itki ilə xilas olması üçün dövlətimiz səviyyəsində böyük işlər görülür, xalqımız da dəstəyini əsirgəmir”, – deyə bildirir.



**“Bir təbəssüm” Gənclər Birliyinin həmtəsisçisi və sədri, ictimai-siyasi fəal İbrahim İbrahimli** zəlzələ qurbanlarını dərin hüznlə yad edənlər arasındadır:

– Türkiyə xalqının başına gələn müsibətin çox böyük və ağır bir dərd olduğunu duyuruq. Dəhşətli fəlakətin nəticələri böyük dağıntılara gətirib çıxarsa da, özümüzü itirməməyə, qardaşlarımızın yanında olmağa çalışırıq. Zərərçəkənlərə dövlətin başladığı yardım kampaniyasına biz də qoşulmuşuq. Bir çox videolar çəkərək paylaşmışıq. Kimin əlindən nə gəlirsə, yardım kampaniyasına qoşulub öz köməyini əsirgəməsin.

Türkiyə ən ağır günlərdə Azərbaycanın yanında olub. Xalqımızın müqəddəs Vətən müharibəsi savaşında qardaş ölkənin bizə verdiyi hərtərəfli dəstək heç zaman yadımızdan çıxmaz.

**Daha bir gənc, aerokosmik startap layihəsi olan “AzAstro Texnologiyaları”nın təsisçisi Həsən Quliyev** dəhşətli təbiət fəlakətinin səbəb olduğu ağır itkilərdən söz açır: “Kaş türk qardaşlarımız belə bir müsibətlə qarşılaşmayaydılar. Bununla bağlı danışmaq belə bizə çox əzab verir. Ötən illər ərzində fəaliyyətimdə Türkiyə ilə çox yaxın əlaqələr qurmuşam. Pilotsuz uçuş aparatlarının hazırlanması ilə məşğulam. 2022-ci ildə Türkiyənin Azərbaycanda keçirdiyi “TEKNOFEST” Aerokosmik və Texnologiya Festivalında yaxından iştirak etmişdim. “Bayraktar TB2” pilotsuz uçuş aparatlarının yaradıcısı Səlcuq Bayraktar, eləcə də Türkiyənin dövlət qurumlarının bir çox rəsmiləri ilə görüşlərimiz oldu. Bu günlər böyük fəlakətlə üz-üzə olan Türkiyənin dərdi bizi yandırır. Bu müsibətdə öz həyatlarını itirmiş bacı-qardaşlarımıza, dostlarımıza başsağlığı veririk, yaralananlara tez bir zamanda şəfa tapmalarını diləyirik. İnşallah bu bəlanın öhdəsindən birgə gələcəyik”.

Beləcə, reportajımızı tamamlayıb qərənfillərin al qırmızı rəngə boyadığı qardaş ölkənin səfirliyinin önünə toplaşan insan izdihamını tərk edirik. Ürəyimiz isə zəlzələ qurbanlarının əziz xatirəsini anmağa gələn insanların kədəri, ağrısı ilə daha da ağırlaşır.

***

Qardaş türk xalqına kömək göstərilməsi üçün ölkəmizin hər yerində yardımlar toplanılır. Heydər Əliyev Fondu tərəfindən təşkil edilən kampaniya Əl Oyunları Sarayında keçirilir. Toplanan yardımlar könüllülər tərəfindən çeşidləndikdən sonra TIR-lara yüklənir və qardaş ölkəyə yola salınır.

Zəlzələdən zərərçəkənlər əsasən qış paltarları, o cümlədən gödəkcə, şalvar, əlcək və qalın yun corablara ehtiyac duyurlar. Bundan başqa, çətin vəziyyətdə olan insanlara daha çox çadır, yataq, yorğan, döşək, əl fənəri, generator, powerbank, təmizlik ləvazimatları lazımdır.

Bakı İdman Sarayındakı yardım kampaniyasında fəal iştirak edən **şəhid anası Həcər Hüseynova** ilə söhbətləşirik. Türk qardaşlarımızın acı günündə onların yanında olduğunu deyən şəhid anası bu faciənin ağırlığına mətanətlə sinə gərməyimizin vacib olduğunu bildirir: “Qardaş Türkiyənin dərdi bizim ağrımızdır. Ürəyimdə böyük dağ var – bala dağı. Mən bunun nə qədər ağır olduğunu başa düşürəm. Bugünlər türk xalqının ürəyinə çalım-çarpaz dağ çəkilib. Gözlərini bu dünyaya əbədi yuman körpələrini haraylayan ana, ata ağıları yerigöyü titrədir. Anası-atasız qalan körpələrin göz yaşları ürəyimizə axır. Bu böyük müsibət qarşısında söz acizdir. Amma xalqlarımız çox bəlalara sinə gərib, bu müsibətin öhdəsindən də gələcəyik”.

Qəhrəman anası gətirdiyi isti geyimləri də oğlu – şəhid Elçin Hüseynovun adından ianə etdiyini bildirib. Göz yaşları içərisində əlavə etdi: “Onlar necə ki, 44 günlük Vətən müharibəsində bizə dəstək oldular, biz də onlara bu acı günlərində hər cür yardım etməyə hazırıq”.

Yardım etmək məqsədilə buraya toplaşan insanların nəqliyyatın işinə mane olmamaları üçün Yol Polisi əməkdaşları da intensiv şəkildə fəaliyyət göstərir, süni maneələrin qarşısını almağa çalışırlar. Fevral ayının şiddətli soyuq günlərindən biri olmasına baxmayaraq, yardım üçün yığılan əşyaların təyin olunan ünvanlara çatdırılması üçün hamı kömək göstərir.

5–6 yaşlı uşağın əlindən tutan ana böyük bağlamanı, az qala, sürüyə-sürüyə gətirir. **Paytaxt sakini Gülnarə Məmmədova** “Türkiyədə dağıntılar altından xilas olan insanlara isti geyimlər çox vacibdir. İsti adyal, yorğan, bir də çoxlu uşaq paltarları almışam”, – deyir.

Yardım etmək istəyənlərin arasında cavan oğlanlar daha çox gözə dəyir. Onlardan biri – paytaxt sakini **Emil Həsənov** artıq iki gündür dostları ilə yardım gətirənlərə kömək etdiklərini bildirir: “Özümüz də zəruri saydığımız əşyaları alıb gətirmişik. Bundan başqa, uşaqlı qadınlara, yaşlı insanları kömək edir, bu yardımların ünvanlara çatdırılmasına dəstək göstəririrk”.

Başımız sağ olsun, Türkiyəmiz! Türk xalqı hər zaman başını dik tutub. Bu gün hər birimiz ucadan “Sizinləyik”, – deyirik. Qoy xalqlarımızın ümidləri üzülməsin!

**Leyla QURBANOVA,**
**Fidan HÜQUQQIZI,**
**Elşən AĞALAR (foto)**

Xalq qəzeti .- 2023.- 9 fevral.- S.6.